Bülleten No: 14 / fevral 2014

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

FEVRAL 2014

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# 2013-cü ildə "Elektron hökumət" portalına 262 min vətəndaş müraciət edib



**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında baş verən inkişafın informasiya texnologiyaları sahəsində də bir çox nailiyyətlərin əldə olunmasına şərait yaratdığını, 2013-cü ilin dövlətimizin başçısı tərəfindən İKT ili elan olunmasının da qazanılan nəticələrə önəmli təsir göstərdiyini bildirib.

Nazir İKT sektorunun artım tempi ənənəvi olaraq ümumdünya orta göstəricisini təxminən iki dəfə üstələyərək 14 faiz təşkil etdiyi və sahə üzrə ümumi gəlirlər 2 milyard dolları ötüyü barədə məlumat verib. O, bir çox məsələlərə toxunaraq həmçinin bildirib ki, "Elektron hökumət" portalı vasitəsilə elektron xidmətlərin göstərilməsi genişlənmiş, hesabat ilində portala yeni xidmətlər əlavə olunub. Beləliklə Nazirlər Kabinetinin təsdiq etdiyi 428 xidmətdən 281-i hökumət portalı vasitəsi ilə rəsmi verilir. 2013-cü ildə elektron hökumət portalına 262 min vətəndaş müraciət etmiş və 730 mindən çox elektron xidmət alınıb. Vergilər Nazirliyinin ASAN mobil imza sertifikat mərkəzi yaradılmış və ölkənin vahid elektron imza sisteminə qoşulub.

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsinə uyğun olaraq, əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan dövlət orqanlarının və həmin orqanlarda müvafiq vəzifələrin (peşələrin) siyahısını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.4.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsinə uyğun olaraq, əmək müqaviləsi bildirişinin formasını və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarını, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat formasını, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaları bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

www.e-gov.az

**1.5.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.6.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin: 3.1.1. 7-ci maddəsinin 2-1-ci hissəsində və 49-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**3.1.2.** 49-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**3.1.3.** 3-cü maddəsinin 5-1-ci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

**3.1.4.** 15-ci maddəsinin 7-ci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini birinci halda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, ikinci halda Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;

**3.2.** "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun 3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

**4.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

**4.1.** əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin texniki infrastrukturunun yaradılması, habelə bu sistemin fəaliyyəti barədə işəgötürənlərin və işçilərin təlimatlandırılması üçün tədbirləri həyata keçirsin;

**4.2.** "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun qüvvəyə mindiyi günədək yazılı bağlanılmış qüvvədə olan əmək müqavilələri barədə əmək müqaviləsi bildirişlərinin 2014-cü il 1 iyul tarixinədək əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil olunmasını təmin etmək üçün zəruri tədbirlər görsün;



**4.3.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birlikdə əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminə Azərbaycan Respublikası Vergilər Nazirliyinin real vaxt rejimində, məhdudiyyətsiz və fasiləsiz çıxışını təmin etmək məqsədilə xüsusi ötürülmə zolağının yaradılması üçün zəruri texniki və təşkilati tədbirləri həyata keçirsin.

**6.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin fəaliyyəti üçün zəruri olan məlumat mübadiləsinin real vaxt rejimində həyata keçirilməsini təmin etsinlər.

**7.** Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi əmək müqaviləsi bildirişi üzrə xidmətin "Elektron hökumət" portalı vasitəsi ilə həyata keçirilməsini təmin etmək üçün tədbirlər görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 fevral 2014-cü il.*

# "Müavinətlər üzrə axtarış"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) "Elektron hökumət" portalı (www.e-gov.az) vasitəsilə vətəndaşlara təqdim etdiyi e-xidmətlər arasında "Müavinətlər üzrə axtarış" adlı xidməti var. Bu xidmət vasitəsilə vətəndaşın FİN koduna uyğun sosial müavinətlər haqqında məlumatların əldə edilməsi mümkündür.**

Bunun üçün "Elektron hökumət" portalına daxil olub ƏƏSMN tərəfindən təqdim olunan e-xidmətlər siyahısından "Müavinətlər üzrə axtarış" xidmətinin adını seçməlisiniz. Açılan formanın içində "FİN" sətrində istifadəçinin FİN kodu əks olunacaqdır.

Siz əldə etdiyiniz məlumatları PDF formatında kompüterinizin yaddaşında saxlaya, çap edə, özünüzün və yaxud başqa şəxslərin elektron poçt ünvanına göndərə bilərsiniz.

Qeyd edək ki, müavinət almırsınızsa, bu vaxt "FİN" sətrində əks olunan FİN kodu əsasında "Göndərmək" düyməsindən istifadə etdikdə, açılan yeni formanın içində heç bir məlumat əks olunmayacaqdır.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etmək məqsədi ilə elektron informasiya sistemini yaradır

**Bundan sonra əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranacaqdır.**

Bununla bağlı "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2013-cü il 27 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir. Qeyd olunan Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanı imzalanmışdır.




Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi İdris İsayev keçirdiyi mətbuat konfransında məlumat verib. O bildirib ki, Fərmanın tətbiqi ilə əlaqədar müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına müəyyən tapşırıqlar verilmişdir. Verilmiş tapşırığa əsasən əmək müqaviləsi bildirişinin formasının və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarının, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə gönpdərilən məlumat formasının, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaların bir ay müddətində hazırlanması nəzərdə tutulmuşdur. Dəyişikliyə əsasən əmək qanunvericiliyinə əmək müqaviləsi bildirişi anlayışı daxil edilmişdir. Əmək müqaviləsi bildirişi - əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədi ilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir.

İ. İsayev qeyd edib ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

Xidmət rəisi vurğulayıb ki, bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. "Elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumatın göndərilməsi nəzərdə tutulmuşdur". Bu Qanun qüvvəyə mindiyi günədək yazılı bağlanılmış və qüvvədə olan əmək müqavilələri üzrə əmək müqaviləsi bildirişlərinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində qeydiyyata alınması məqsədi ilə işəgötürənlər tərəfindən həmin elektron informasiya sisteminə daxil edilməsinə 2014-cü ilin 1 iyul tarixinədək vaxt verilmişdir.

İ. İsayev nəzərə çatdırıb ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 43-cü maddəsinə edilən dəyişiklərə əsasən əmək müqaviləsində göstərilən şərtlər və məlumatların da dairəsi genişləndirilir. Belə ki, bundan sonra müqavilədə işçi barədə məlumatlara onun şəxsiyyətini təsdiq edən sənədin pin kodu barədə məlumatların da əlavə edilməsi tələb olunacaqdır. Eyni zamanda müqavilədə işəgötürən barədə məlumatlara əlavə olaraq sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), şəxsiyyətini təsdiq edən sənədin pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN) barədə məlumatların da göstərilməsi tələb olunacaqdır. Göstərilən əlavə məlumatlar əmək müqaviləsi bildirişlərnin işəgötürənlər tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edilməsini asanlaşdıracaqdır.

Xidmət rəisi vurğulayıb ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilmiş dəyişikliklər məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etməyə və qeyri-leqal əmək fəaliyyətinin qarşısının alınmasına, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsində və əməyin ödənişinin təşkilində mövcud olan problemlərin aradan qaldırılmasına hədəflənmişdir. Artıq bütün işəgötürənlərin, eləcə də işçilər onlar tərəfindən bağlanmış əmək müqavilələri barədə məlumatları əmək müqaviləsi bildirişləri vasitəsi ilə real vaxt rejimində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemindən əldə etmək imkanları olacaqdır. Bununla da, hər iki tərəf əmək müqavilələri ilə üzərində götürdükləri öhdəlikləri yerinə yetirmək məcburiyyətində qalacaqdır: "Əmək müqaviləsi bildirişləri işçilər üçün ilk növbədə əmək hüquqlarının və bu hüquqlardan irəli gələn digər, o cümlədən sosial təminat hüquqlarının müdafiəsinin təminat formasıdır. Bu sənəd vasitəsilə işçilərdə göstərilən hüquqların icrasını işəgötürəndən tələb etmək imkanı yaranır. Eyni zamanda əmək müqaviləsi bildirişləri işəgötürən üçün əmək qanunvericiliyində nəzərdə tutulmuş hüquqlarının qorunmasının təminat formasıdır. Bu sənəd vasitəsilə işəgötürənlər işçilərlə münasibətdə əmək müqaviləsində razılaşdırılmış şərtlərin şəffaf şəkildə icrasını təmin edə bilirlər". İ.İsayev onu da nəzərə çatdırıb ki, göstərilən dəyişikliklər dövlət nəzarətini həyata keçirən orqanlara elektron nəzarət sisteminin qurulmasına, qeyri-leqal məşğulluğun aradan qaldırılması istiqamətində səmərəli fəaliyyətinə, sosial sığorta haqları və vergi daxilolmalarının artırılmasına, vətəndaşların layiqli pensiya təminatına gətirib çıxaracaqdır.

# Dövlət Sosial Müdafiə Fondundan yeni elektron xidmətlər




Azərbaycanda dövlət sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi elektronlaşdırıldı və "Sığortaolunanın onlayn uçota alınması" adlı elektron xidməti istifadəyə verilib.

**Bununla bağlı keçirilən təqdimat mərasimində DSMF sədri Elman Mehdiyev bildirib ki, Azərbaycanda müasir avtomatlaşdırılmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində hazırda Fond tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı 19-a çatdırılıb.**

2013-cü il ərzində DSMF-nin həm öz saytı (www.dsmf.gov.az), həm də "Elektron hökumət" portalı (www.e-gov.az) vasitəsilə əhaliyə təqdim etdiyi elektron xidmətlərdən ümümilikdə 700 minə yaxın vətəndaş yararlanıb. Ötən il ən çox istifadə olunan elektron xidmətlər sırasına "Sığortaolunanlara məlumatların verilməsi" (81 308), "Sığortaedənin uçot nömrəsinin öyrənilməsi" (18 833), "Pensiya kalkulyatoru" (15 142), "Pensiyaçıya məlumatların verilməsi" (16 673) daxildir. Bundan başqa, "Məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənişi" elektron xidməti də ən çox müraciət edilən xidmət olub və bu xidmət vasitəsilə 560 976 ödəniş həyata keçirilib. Ötən ilin 11 iyul tarixindən Azərbaycanda beynəlxalq praktikada ilk dəfə olaraq yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına başlanıldığını fikirlərinə əlavə edən Fond sədri artıq bu sistem vasitəsilə 1200-dən çox vətəndaşa pensiya təyin edildiyini bildirib.

E.Mehdiyev vurğulayıb ki, "Elektron hökumət" portalının statistikasına əsasən, ötən il Fondun elektron xidmətləri əhalinin ən çox müraciət etdiyi elektron xidmətlərdəndir. İl ərzində bu portala inteqrasiya olunan elektron xidmətlərdən 132 minə yaxın vətəndaş yararlanıb: "Cari il ərzində bir sıra yeni elektron xidmətlər də əhalinin istifadəsinə veriləcək və həmin xidmətlərlə bağlı işlər yekunlaşmaq üzrədir"-deyə Fond sədri bildirib.

Daha sonra DSMF sədri ictimaiyyətə təqdim olunan "Sığortaolunanın onlayn uçota alınması" adlı yeni xidmət barədə məlumat verərək vurğulayıb ki, bu xidmət vasitəsilə sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesini elektron qaydada həyata keçirmək mümkündür. Belə ki, indiyə qədər ilk dəfə əmək fəaliyyətinə başlayan vətəndaşın sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi üçün sığortaedən (işəgötürən) işçi ilə əmək müqaviləsi bağladığı gündən sonra sığortaolunanın ərizəsinin tərtibini təşkil etməli və onu müvafiq qaydada təsdiq edərək sənədlər toplusunu siyahı ilə birlikdə DSMF orqanına şəxsən təqdim etməli idi. Bundan sonra isə hər bir sığortaedən öz ofisindən kənara çıxmadan birbaşa elektron qaydada müraciət etməklə sığortaolunanlar üçün sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi imkanına malik olacaq. E.Mehdiyev bildirib ki, prosesin tam elektronlaşdırılması həm kağız daşıyıcılarından istifadənin, həm vaxt itkisinin aradan qalxmasına, həm də şəffaflığın təmin olunmasına gətirib çıxaracaq.

Tədbirdə DSMF-nin yeni elektron xidmətdən istifadə qaydaları nümayiş etdirilib. Bildirilib ki, "Sığortaolunanın onlayn uçota alınması" elektron xidməti interaktivdir, xidmətdən istifadə ödənişsizdir və elektron xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur. Elektron xidmətdən istifadə üçün sığortaedən "https://www.e-gov.az" internet ünvanına daxil olur, "Sığortaolunanın onlayn uçota alınması" elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş ərizə DSMF orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir.

Sığortaedən tərəfindən elektron formada göndərilmiş elektron ərizə formalarına DSMF tərəfindən baxılır. Təqdim edilmiş elektron ərizə formaları yoxlandıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır və onun soyadı, adı, atasının adı, doğulduğu tarix, doğulduğu yer, cinsi və sosial sığorta nömrəsi (SSN) əks olunan dövlət sosial sığorta şəhadətnaməsi 1 ay ərzində rəsmiləşdirilir.

Digər bir xidmət isə "Sığorta edənin uçot nömrəsinin öyrənilməsi" adlanır. "Sığortaedənin uçot nömrəsinin öyrənilməsi" adlı e-xidmət hüquqi, fiziki şəxslərin, torpaq mülkiyyətçilərinin öz uçot nömrələri barədə məlumatı dərhal, maneəsiz əldə etməyə imkan verir.

Sözügedən xidmət "Elektron hökumət" portalının "Qeydiyyatsız xidmətlər" bölməsində yerləşdirilib. Xidmətdən istifadə qaydaları olduqca sadədir. Müraciət edən hüquqi və fiziki şəxs yalnız öz VÖEN-ni, torpaq pay mülkiyyətçisi isə torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin seriya və nömrəsini daxil etməklə sığortaedənin uçot nömrəsini (SUN) dərhal öyrənə bilər. "SUN" sığortaedənin elektron xidmətlərdən istifadəsi üçün tələb olunan əsas göstəricilərdən biridir. Bu nömrəni sığortaedən əldə etməklə hesabatlarını elektron qaydada göndərmək, məcburi dövlət sosial sığorta haqlarını onlayn ödəmək və digər elektron xidmətlərdən istifadə etmək imkanını qazanır.

## Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 13 adda elektron xidmətin göstərilməsinə başlanılıb

**"Standartlaşdırma üzrə 2013-cü il üçün İşlər Planı"na müvafiq olaraq informasiya-kommunikasiya texnologiyaları, ekologiya, qida məhsulları, nəqliyyat, keyfiyyətin idarə olunması, torpaqların qiymətləndirilməsi, dəniz üzgüçülüyünün təhlükəsizliyi və tikinti materialları sahələri üzrə standartlar qəbul edilib.**

Ümumilikdə ötən il Azərbaycan Respublikasında 62 yeni dövlət standartı təsdiqlənib. Bu barədə məlumat verən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən (SMPDK) bildirilib ki, 2013-cü ildə qurum tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlər təsdiq olunub və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib:

"Beləliklə, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının icrası məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli, 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nda Komitəyə aid edilmiş 13 adda elektron xidmətin göstərilməsinə başlanılıb. Elektron xidmətlər "Elektron hökumət" portalına (www.e-gov.az) inteqrasiya olunub. Komitənin elektron xidmətlərinin 3-ü akkreditasiya, 6-sı patent, 2-si standartlaşdırma, 1-i metrologiya sahələrinə, 1-i isə cərimələrin onlayn ödənişinə aiddir".



Belə ki, artıq sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslər laboratoriyaların və sertifikatlaşdırma orqanlarının akkreditasiyası, həmçinin sənaye mülkiyyəti obyektlərinin mühafizəsi ilə bağlı işləri, ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatların alınması və s. ilə bağlı müraciət və sənədləri elektron formada - Komitənin elektron xidmətlər sisteminə (http://www.e-xidmet.azstand.gov.az) daxil olmaqla göndərə, həmçinin dövlət rüsumlarını, inzibati cərimələri real vaxt rejimində onlayn ödəyə bilərlər. Eyni zamanda Komitə yanında Dövlət Akkreditasiya Xidmətinin akkreditasiya etdiyi sertifikatlaşdırma orqanları tərəfindən ötən il mal, məhsul və xidmətlərə 8250 adda uyğunluq sertifikatı verilmişdir.

## Vergilər Nazirliyi Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 22423 sertifikat verilib

**Ötən ilin sonunadək vətəndaşlar tərəfindən "Asan (Mobil) İmza" sertifikat xidmətləri üzrə 11805 müraciət olub, ümumilikdə 22423 "Asan (Mobil) İmza" sertifikatı verilib.**

Bu məlumat Vergilər Nazirliyinin 2013-cü il ərzində görülmüş məlumatlandırma və maarifləndirmə işləri haqqında hesabatında əksini tapıb.

Qeyd edək ki, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı 2013-cü ilin may ayından Vergilər Nazirliyinin Asan Sertifikat

Xidmətləri Mərkəzi (ASXM) fəaliyyətə başlayıb. Məlumatda həmçinin bildirilir ki, 2013-cü il ərzində göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi ödəyicilərinə xidmət mərkəzlərinin Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) inteqrasiyası başa çatdırılıb, xidmət mərkəzlərinin hamısı AVİS sisteminə qoşulub və sürətli internet xətti ilə təchiz olunub.

Həmçinin "POS-terminalın onlayn qeydiyyatı" elektron xidməti "Elektron hökumət" portalı üzərindən bankların istifadəsinə verilib.

www.e-gov.az

# Yarım milyondan artıq insan TQDK-nın elektron xidmətlərindən yararlanıb



**İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi xarakter daşıyan qəbul kampaniyası proseslərinə tətbiqi istiqamətində Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (TQDK) işlər bu il də intensiv şəkildə davam etdirilib və bu sahədə bir çox yeni layihələr həyata keçirilib. Bununla da yüz minlərlə vətəndaşa elektron formada xidmət göstərilib.**

Buraya internet vasitəsilə sınaq imtahanlarına qeydiyyat, virtual sınaq imtahanlarının keçirilməsi, "Abituriyent" jurnallarının elektron satışı, yayılması və digər xidmət növləri də əlavə edilsə, demək olar ki, yarım milyondan artıq insan TQDK tərəfindən göstərilən elektron xidmətlərdən yararlanıb. Komissiyadan qeyd edilib ki, müasir informasiya texnologiyalarının qəbul prosesinə uğurlu tətbiqi TQDK-nın fəaliyyətinin şəffaflığını artırmaqla bərabər, həm də insanların vaxtına və maddi vəsaitinə qənaət edilməsinə, onların zəhmətinin yüngülləşdirilməsinə, rahatlığının təmin olunmasına yönəlib:

"Bu proses ölkəmizdə həyata keçirilən "Elektron hökumət" proqramının inkişafına dəyərli töhfə olub, yüz minlərlə gəncə məhz bu proqramın tələblərinə uyğun xidmət göstərilib. Digər tərəfdən, İKT-nin qəbul proseslərinə ardıcıl tətbiqi bütövlükdə gənclərin, xüsusilə kənd rayonlarında yaşayan gənclərin İKT texnologiyalarını öyrənməsinə və tətbiq etməsinə olduqca əlverişli stimul olub".

TQDK-nın İKT-dən, o cümlədən internetdən istifadə etməklə ölkədə informasiya cəmiyyəti quruculuğuna xidmət üçün həyata keçirdiyi tədbirlərin təsnifatına gəlincə, buraya "Sınaq imtahanlarına yazılışın internet vasitəsilə aparılması", "Onlayn sınaq imtahanlarının keçirilməsi", "Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulunun elektron üsulla həyata keçirilməsi", "Ali və orta ixtisas təhsili müəssisələrinə elektron ixtisas seçiminin aparılması", "Xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbulda qeydiyyatın və qabiliyyət imtahanları üzrə nəticələrin işlənməsinin internet vasitəsilə aparılması", "İmtahana buraxılış vərəqlərinin internet vasitəsilə gerçəkləşdirilməsi", "Abituriyentlərə kömək məqsədilə fənlər üzrə videomühazirələrin təşkili", "Bölgələrin təhsil işçilərinin TQDK-nın tədbirlərinə qatılması üçün Komissiyanın inzibati binası ilə bölgələr arasında videobağlantıların qurulması" daxildir.

Həmçinin təsnifatda "TQDK-nın "Ödəmə kartı"nın elektron satışının tətbiqi", "Mənim məktəbim" saytında respublikanın bütün ümumtəhsil məktəblərinin məzunlarının "Tələbə-məzun" dövlət elektron məlumat sisteminin fəaliyyəti", "Magistratura və rezidentura səviyyələrinə ərizə qəbulu zamanı elektron imza sertifikatı olan şəxslərə sənəd qəbulu komissiyalarına müraciət etmədən öz ərizələrini özləri tərəfindən elektron imza ilə təsdiq etmək imkanının yaradılması", "Orta ümumtəhsil müəssisələrində yekun qiymətləndirmə prosesinin həyata keçirilməsi üçün tələb olunan kompüter proqramlarının qısa müddət ərzində işlənib hazırlanması, tətbiq olunması", "Magistratura səviyyəsinə imtahan balları elan olunarkən bakalavrların cavab kartlarının qrafik təsvirlərinin onların fərdi səhifələrində yerləşdirilməsi" aiddir.

# Avtomobillərin gömrük rəsmiləşdirilməsində yenilik olacaq




Azərbaycana gətirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin elektron qaydada həyata keçiriləcəyi gözlənilir. Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, komitənin göstərdiyi 9 elektron xidmətə daha 3-nün əlavə olunması nəzərdə tutulub. Söhbət elektron gömrük bəyannaməsindən gedir ki, bu da xarici iqtisadi fəaliyyət iştirakçılarına idxal və ixrac etmək istədikləri mal və nəqliyyat vasitələrini internet üzərindən bəyan edə biləcəklər.

Bundan başqa, elektron monitorinq xidməti də istifadəyə veriləcək ki, bu da gömrük rəsmiləşdirilməsi prosesini internet vasitəsilə izləməyə imkan verəcək. Həmçinin elektron gömrük ödənişləri xidmətinin tətbiq sahəsinin genişləndirilməsi nəzərdə tutulub. Bütün bu yeniliklər 2014-cü ildə baş tutacaq.

# Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov rəhbərlik etdiyi komitənin göstərdiyi elektron xidmətlərdən danışıb




"Şəffaflıq və səmərəliliyin gücləndirilməsi məqsədilə müasir effektiv mexanizmlərin və optimal elektron xidmətlərin tətbiqi genişləndirilib".

**Bu fikirləri Əmlak məsələləri dövlət komitəsinin sədri Kərəm Həsənov komitənin 2013-cü ildəki fəaliyyətinə həsr olunmuş müşavirədə söyləyib. O qeyd edib ki, ötən ildə prosedurların sadələşdirilməsi, xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində ciddi işlər görülüb.**

Müşavirədə qeyd edilib ki, Əmlak Məsələləri Dövlət Komitəsi öz fəaliyyətində bütün səylərini mükəmməl elektron əmlak idarəçiliyi sisteminin qurulmasına yönəldib. Bunun üçün müasir informasiya texnologiyaları aktiv tətbiq edilir, vahid korporativ kompüter idarəetmə şəbəkəsi qurulur və bu istiqamətdə işlər sürətlə genişləndirilir. Eyni zamanda, bu sistemin hüquqi əsasını təmin edəcək qanunvericilik bazası təkmilləşdirilir.

Qeyd olunub ki, komitə 2012-ci ildən elektron xidmətlərin tətbiqinə başlayıb. Ötən il isə belə xidmətlərin sayı və keyfiyyət dərəcəsi artırılıb. Hazırda 16 elektron xidmət vətəndaşların və hüquqi şəxslərin istifadəsindədir. Bu xidmətləri özündə cəmləşdirən komitənin portalı istifadəyə verilib. Artıq bu xidmətlər sayəsində heç bir yerə getmədən, əlavə vaxt sərf etmədən daşınmaz əmlakın qeydiyyatı üçün internet vasitəsilə onlayn müraciət etmək mümkündür. Portalın istifadəyə verilməsi əhaliyə daha şəffaf, operativ və etibarlı xidmətlərin göstərilməsini təmin edir.

Qeyd olunan elektron xidmətlərə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın alınması, məhdudiyyət arayışının alınması, ipotekanın və lizinqin qeydiyyatı, daşınmaz əmlak obyektlərinin ünvanları barədə arayışların alınması üçün elektron müraciətlərin qəbulu, dövlət əmlakının qorunması və istifadəsi vəziyyəti barədə illik xüsusi hesabatların elektron qəbulu kimi interaktiv və informativ xidmətlər daxildir.

Bu xidmətlərin hamısı "Elektron hökumət" portalına inteqrasiya edilib. Artıq bu xidmətlər vasitəsilə Bakı və respublikanın müxtəlif bölgələrindən 8800-ə yaxın müraciət daxil olub. Hazırda elektron xidmətlərin sayının artırılması üzərində işlər aparılır:

" ... artıq vətəndaşlar mülkiyyət hüquqlarının təkrar qeydiyyatına dair çıxarışları 7 günə, əmlak barədə digər arayışları isə 1 günə əldə edirlər. Məlum olduğu kimi, Dünya Bankının dəstəyi ilə 2007-ci ildən indiyədək "Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi" həyata keçirilir. Layihə icra olunduğu müddətdə qeydiyyat sahəsində bir sıra səmərəli nəticələr əldə edilib. Daşınmaz Əmlakın Milli Qeydiyyat Sistemi və vahid korporativ kompüter şəbəkəsi yaradılıb".

Müşavirədə bildirilib ki, hazırda daşınmaz əmlaka dair qeydiyyat məlumatlarının elektron arxivinin yaradılması üzərində işlər gedir. Səmərəli, şəffaf və çevik fəaliyyət üçün uzun illər ərzində arxivlərdə toplanmış kağız daşıyıcılarında olan qeydiyyat məlumatları sürətlə elektron bazaya köçürülür.

O da vurğulanıb ki, Bakı şəhərinin 5 rayonu (Səbail, Yasamal, Nəsimi, Nərimanov, Xəzər) üzrə daşınmaz əmlaklar haqqında mükəmməl elektron kadastr məlumat bazasının yaradılması və bu rayonların rəqəmsal kadastr xəritələrinin tərtibi üzrə işlər görülüb. Həmçinin respublikanın 53 şəhər və rayonu üzrə sadə modelli elektron kadastr məlumat bazasının yaradılması ilə bağlı işlər görülüb:

www.e-gov.az

"Ünvan Reyestrinin məlumat bazasının elektron idarə edilməsini, həmçinin ünvan reyestri ilə inteqrasiya olunan digər dövlət orqanlarının informasiya sistemləri vasitəsilə qarşılıqlı məlumat mübadiləsini təmin edən informasiya sistemidir. Ünvan məlumatlarının Ünvan Reyestrinin İnformasiya Sisteminə inteqrasiya edilməsi istiqamətində işlərin icrası davam etdirilib. Bakı şəhəri üzrə 1235 küçə və prospektə ünvan təyin edilib. Bakı şəhərinin 409 küçə və prospektinin başlanğıcı, sonu, eləcə də onların koordinatları müəyyənləşdirilib və təsdiqlənib".

Kərəm Həsənov məlumat verərək bildirib ki, yaxın zamanda Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daşınmaz əmlaka dair yüklülük arayışlarının (Forma-1) notariuslara real vaxt rejimində (onlayn) verilməsi elektron xidməti cəmiyyətin istifadəsinə təqdim ediləcək.

2014-cü ildə komitə tərəfindən daha 10 elektron xidmətin təşkili və istifadəyə verilməsi nəzərdə tutulur. Əsas hədəf vətəndaşlara göstərilən xidmətin keyfiyyətini yüksəltmək, bu sahədə şəffaflıq və çevikliyi daha da artırmaqdır" – deyə komitə sədri qeyd edib.

## Daşınmaz əmlaka dair yüklülük arayışlarının real vaxt rejimində verilməsi ilə bağlı elektron xidmət yaradılır

**Yaxın zamanda Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daşınmaz əmlaka dair yüklülük arayışlarının (Forma-1) notariuslara real vaxt rejimində (onlayn) verilməsi elektron xidməti cəmiyyətin istifadəsinə təqdim ediləcək.**



Vətəndaşlar əmlakın hüquqi vəziyyəti ilə bağlı bu arayışları 2014-cü ilin əvvəlindən onlayn qaydada əldə edəcəklər.

Arayışların "onlayn" rejimdə verilməsi məmur-vətəndaş ünsiyyətinin aradan qalxmasına, vaxta böyük qənaət olunmasına, bununla da vətəndaşların bu xidmətdən optimal faydalanmasına gətirib çıxaracaq. Hazırda bu mexanizmin tətbiqi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir.

## Cərimələrin ödənilməsi ilə bağlı daha bir elektron xidmət



Dövlət Statistika Komitəsinin "Elektron hökumət" portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim etdiyi xidmətlərin siyahısında "Protokol nömrəsinə görə məlumatların (Protokol və Akt) əldə edilməsi və cərimənin ödənilməsi" adlı xidməti var. Bu xidmət "Protokol nömrəsinə görə məlumatların (Protokol və Akt) əldə edilməsi və cərimənin ödənilməsi" adlanır. Lazımi informasiyanı əldə etmək və cəriməni ödəmək üçün vətəndaşlardan Komitə tərəfindən təqdim olunan ərizə formasını doldurmaq tələb olunur. Ərizənin ümumi detallarına protokolun nömrəsi, vətəndaşın adı və soyadı, iş yeri, vəzifəsi, ünvanı, telefon nömrəsi, elektron poçt ünvanı, poçt indeksinin yazılması daxildir. Burada həmçinin ödənişin növü və məbləğin göstərilməsi də tələb olunur. Ödənişin növü VISA Electron, VISA, MasterCard və Maestro plastik kartları ilə həyata keçirilir.

# "Elektron hökumət" portalında təqdim edilən elektron xidmətlərlə bağlı təlimatlar

**"Elektron hökumət" portalı vətəndaşların elektron xidmətlərdən daha düzgün istifadə etməsi üçün dövlət qurumlarının təqdim etdiyi xidmətlərlə (https://www.e-gov.az/e-services/) bağlı yeni üç funksiya əlavə edib.**

Belə ki, vətəndaş "Elektron hökumət" portalında dövlət qurumlarının təqdim etdiyi müvafiq elektron xidməti seçməklə, həmin xidmətlə bağlı reqlament, istifadə təlimatı və video təlimatla tanış ola bilər. "Elektron hökumət" portalında artıq bir neçə dövlət qurumunun təqdim etdiyi elektron xidmətlərlə bağlı reqlament, istifadə təlimatı və video təlimatlar yerləşdirilib. Portala giriş edən şəxs sözügedən üç yeni funksiyadan istifadə etməklə, ona lazım olan xidmətdən daha doğru yararlanmış olar. Amma elə dövlət qurumları da var ki, onların portalda təqdim etdiyi elektron xidmətlərə dair heç bir təlimat yoxdur. Bu da "Elektron hökumət" portalından istifadə edən insanlar üçün müəyyən xidmətlərin izahında çətinlik yaradır. Elektron Hökumət Portalı bütün xidmət təminatçılarını bu yeniliyə qoşulmağa dəvət edir.




# Satınalmalar üzrə müqavilə məlumatları "Elektron hökumət" portalı vasitəsilə onlayn təqdim ediləcək

**Ölkədə "Elektron hökumət" quruculuğu sahəsində həyata keçirilən fəaliyyət genişlənməkdə davam edir. Belə ki, müxtəlif dövlət qurumlarının təqdim etdiyi əksər xidmətlər elektron formaya keçirilərək "Elektron hökumət" portalına (www.e-gov.az) inteqrasiya olunur.**

Növbəti olaraq "Satınalmalar üzrə müqavilə məlumatlarının onlayn təqdim edilməsi" xidməti portal vasitəsilə istifadəçilərin ixtiyarına verilib.

Bu xidmət Azərbaycan Respublikasında dövlət müəssisə və təşkilatları, nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar tərəfindən malların (işlərin və xidmətlərin) dövlət vəsaitləri, dövlətin aldığı və dövlət zəmanəti ilə alınmış kreditlər və qrantlar hesabına satın alınması üzrə bağlanmış müqavilə məlumatlarının elektron qaydada Azərbaycan Vergilər Nazirliyinə təqdim edilməsini əhatə edir.

İstifadəçiləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış şəxslər olan interaktiv növlü elektron xidmət ödənişsiz həyata keçirilir.

Elektron xidmətin göstərilməsinə Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsi və İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi məsuliyyət daşıyır.



Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə adıçəkilən nazirliyin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir. Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Çağrı Mərkəzi fəaliyyət göstərir.

www.e-gov.az

# Kredit verilməsi prosesini asanlaşdırmaq üçün "Elektron hökumət" portalından sərfəli təklif

**"Banklarda kreditlərin verilməsi qaydaları"na müvafiq olaraq təminatsız kreditlər borcalanın uzunmüddətli maliyyə hesabatları və kredit tarixləri əldə edilməklə verilməlidir. Fiziki şəxslər üçün tələb olunan maliyyə hesabatları qismində əməkhaqqı və ya fiziki şəxsin rəsmi qaydada təsdiq edilmiş digər mənbələrdən aldığı gəlirlər barədə arayış çıxış edir.**




Qeyd olunanlarla əlaqədar "Elektron hökumət" portalına qoşulmuş Dövlət Sosial Müdafiə Fondu, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və digər aidiyyəti qurumların informasiya sistemlərində "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşın özü barədə fərdi məlumatlarla tanış olmağa və bu məlumatları çıxarış formasında əldə edərək aidiyyəti quruma təqdim etməyə imkan verən "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" resursu hazırlanmışdır. Bu resursdan istifadə edərək vətəndaş tərəfindən şəxsən və ya onun yazılı icazəsi əsasında müvafiq qurum tərəfindən arayış çıxarıla və "Elektron hökumət" portalının xüsusi işarələnməsi ilə təsdiqlənə bilər. Arayışların portal tərəfindən elektron imza ilə imzalanması da mümkündür. İstənilən formada verilən arayışların statistikasına və uçotuna nəzarət olunması Mərkəzi Bank tərəfindən həyata keçirilə bilər.

Elektron Hökumət Portalının operatoru tərəfindən sözügedən elektron arayışların kreditlər verilməsi zamanı fiziki şəxslərdən tələb olunan maliyyə hesabatları qismində qəbul olunması məsələsinə baxılması təklif olunur. Belə imkan vətəndaşların rahatlığını və onların xidmətlərdən məmnunluğunu, həmçinin bankların işinin səmərəliliyinin və məlumatların mötəbərliyinin artmasını təmin edə bilər.

# Vergilər Nazirliyi "Elektron hökumət" portalı üzərindən ən çox elektron xidmət təqdim edən qurumdur



**Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən elektron hökumət portalına inteqrasiya edilmiş elektron xidmətlərin sayı 44-ə çatdırılmışdır.**

Bunun nəticəsində portala inteqrasiya olunmuş xidmətlərin sayı 317-yə çatmışdır. Qeyd olunmalıdır ki, hal hazırda Vergilər Nazirliyi "Elektron hökumət" portalı üzərindən ən çox elektron xidmət təqdim edən qurumdur.

# "Elektron hökumət" portalına daxil olanların sayı 282 919 nəfərə çatdı




ŞƏKİL 1

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin yanvar ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 493 846 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 282 919 nəfər olub. Belə ki, 282 919 nəfər ümumən 493 846 dəfə portala baxıb və 820 555 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 721 171 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 50 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 57.5%-ni yeni istifadəçilər, 42.5%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün yanvar ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 37 134 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 25 115 nəfər olub. Həmin şəxslər 129 626 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 84 108 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 10 saniyə təşkil edib. Yanvar ayı ərzində portala müraciət edənlərin 55%-ni yeni istifadəçilər, 45%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 26166-ya çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 318 ədəd olub.




ŞƏKİL 2



## 01.01.2014 – 31.01.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 60821 |
| 2 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4260 |
| 3 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1597 |
| 4 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1583 |
| 5 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 870 |
| 6 | FİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 746 |
| 7 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 652 |
| 8 | Vətəndaşın fərdi məlumatları barədə arayış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 625 |
| 9 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 604 |
| 10 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 414 |

## 01.01.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 37 | 98 | 135 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.01.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxlərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12402 | 723 | 4856 | 17981 |

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.02.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 12 | 12 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 36 | 44 | 45 | 45 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 25 | 26 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 26 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 16 | 16 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 7 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 6 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 2 | 4 | 3 |
| 46 | "Elektron hökumət" portalı | | | 2 | | |
| | **CƏMİ:** | **428** | **249** | **318** | **453** | **367** |

www.e-gov.az

## 2014-cü ilin yanvar ayı ərzində bütün qurumlar üzrə “Elektron hökumət” portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 2 | 14 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 6 |
| 3 | Energetika Nazirliyi | 3 | 3 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 5 | Xarici İşlər Nazirliyi | - | - |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 | 5 |
| 8 | Dövlət Gömrük Komitəsi | 4 | 231 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 8193 |
| 10 | Dövlət Statistika Komitəsi | - | - |
| 11 | Vergilər Nazirliyi | 11 | 1222 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 1288 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 3 | 8 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 83 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 26 | 546 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 4 | 10 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | - | - |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 4 | 9 |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 158 |
| 21 | Dövlət Dəniz Administrasiyasi | - | - |
| 22 | Təhsil Nazirliyi | 3 | 870 |
| 23 | Gənclər və İdman Nazirliyi | - | - |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 16 | 1296 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 2 | 3 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 890 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 665 |
| 30 | Dövlət Sərhəd Xidməti | 2 | 3 |
| 31 | Müəllif Hüquqları Agentliyi | 4 | 13 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 85 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 176 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 9 |
| 36 | "AzərSu" ASC | 1 | 258 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 39 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 36 | 68022 |
| 39 | Xarici İşlər Nazirliyi | 1 | 1 |
| | **CƏMİ** | **176** | **84108** |

## WWW.AZDATACOM.AZ

“Elektron Hökümət” Proqramı çərçivəsində yaradılan və respublikanın bütün ərazisini əhatə edən məlumatların ötürülməsi şəbəkəsi – “AzDataCom”-un rəsmi saytı olan www.azdatacom.az tam olaraq yenilənib. Saytda bir neçə bölmələr əlavə edilib. Ziyarətçilər sayta daxil olaraq, AzDataCom, müştərilər və eləcə də ən son yeniliklər haqqında məlumat əldə edə bilərlər. Saytda həmçinin yeni bir bölmə də əlavə edilib. Bu online xidmətlər menyusudur. Online xidmətlər menyusuna daxil olan istifadəçilər bir çox online xidmətlər həyata keçirməklə yanaşı, həmçinin internetin sürətini də ölçə bilərlər. Saytın ana səhifəsində sürətinə müvafiq olaraq internetə qoşulma ilə bağlı qiymətlərlə tanış ola bilərlər.




| Sürət (Kbit/s) | Qoşulma haqqı (AZN) | Qiymət (AZN) |
|---|---|---|
| 1024 | 5,00 | 10,00 |
| 2048 | 5,00 | 15,00 |
| 3072 | 5,00 | 20,00 |
| 4096 | 5,00 | 30,00 |
| 5120 | 5,00 | 40,00 |
| 6144 | 5,00 | 50,00 |
| 8192 | 5,00 | 60,00 |
| 10 240 | 5,00 | 80,00 |

AZDATACOM

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az